## Qəzənfər Məsimoğlu

# Qarabağ

Səni daş- daş söküb dağıtdı yağı,
Oldun zərrə- zərrə talan, Qarabağ.
Otuz min yerindən yaraladılar,
Otuz il işğalda qalan Qarabağ.

Dərdini dondurub buz eylədilər,
Günəşdən gizlədib quzeylədilər.
Yurdunu uçurub düz eylədilər,
O viran görkəmin nalən, Qarabağ.

Köçdü bu dünyadan "of" çəkənlərin,
Şişdi otuz ildə nəf çəkənlərin,
Yeyib- içənlərin, kef çəkənlərin,
Ümidlər verdilər yalan, Qarabağ.

Nə qədər igidlər şəhidin oldu,
Axan qanlar ilə gözlərin doldu.
İndi azadlığın yeganə yoldu,
Həsrətdən saralıb solan Qarabağ.

Dünya eşitmədi haqqın səsini,
Zaman yetişdirdi sərkərdəsini.
Ağrılı illərdə təsəllisini,
Müzəffər ordudan alan Qarabağ.